| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 09.07.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1635-VQD |
| **ADI** | Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 21-07-2019, Nəşr nömrəsi: 157), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-2019, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 1199) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.01.2020 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 420.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201907091635 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 22.07.2019 |

**Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 10, maddə 762, 12, maddə 973; 2010, 7, maddə 587; 2011, 6, maddə 485, 7, maddə 593; 2012, 5, maddə 410; 2013, 1, maddə 16, 11, maddə 1267; 2016, 1, maddə 12; 2017, 4, maddə 522, 5, maddə 752, 11, maddə 1976; 2018, 5, maddələr 855, 878, 7 (I kitab), maddə 1440; 2019, 1, maddə 23) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci maddədə “inzibati-iqtisadi məhkəmələr və inzibati-iqtisadi kollegiyalar” sözləri “inzibati məhkəmələr və inzibati kollegiyalar” sözləri ilə əvəz edilsin;

1.2. 3-cü maddənin adında, 3.5-ci maddədə, 5-ci maddənin adında və mətnində, 6-cı maddənin adında və mətnində, 8.6-cı maddənin birinci cümləsində, 81.1-ci maddənin birinci cümləsində, 86.3-cü maddədə “İnzibati-iqtisadi” sözləri “İnzibati” sözü ilə əvəz edilsin;

1.3. 3.1-ci maddədə, 3.2-ci maddənin birinci cümləsində, 3.3-cü, 3.6-cı maddələrdə, 8.6-cı maddənin birinci və ikinci cümlələrində, 81.1-ci maddənin ikinci cümləsində, 83.1-ci, 85.1-ci və 86.1-ci maddələrdə, 87.7-ci maddənin ikinci cümləsində, 87.7.1-ci və 87.7.2-ci maddələrdə “inzibati-iqtisadi” sözləri “inzibati” sözü ilə əvəz edilsin;

1.4. 3.4, 90.1, 98.2, 98.4, 98.5-ci maddələrdə və 98.6-cı maddənin birinci cümləsində “inzibati-iqtisadi” sözləri “İnzibati” sözü ilə əvəz edilsin.

1.5. 3.8-ci maddədə “inzibati-iqtisadi məhkəmələrin və məhkəmə kollegiyalarının” sözləri “inzibati məhkəmələrin və inzibati kollegiyaların” sözləri ilə əvəz edilsin;

1.6. 4.3-cü maddədən “mübahisələrə dair işlər üzrə” sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 iyul 2019-cu il
1635-VQD